UOT 82-1

# FİKRƏT SADIĞIN POEMALARINDA LİRİK RİCƏTLƏR

**S.M.MƏRDANOVA**
***Bakı Dövlət Universiteti***
***samira mardanova@rambler ru***

*Məqalədə Fikrət Sadığını «Ömrün bir günü», «Səs» «Olum, ya ölüm», «Dənizə axan küçə», «Ağ cığır», «Ucadan danışan», «Səhrada tənha buruq», «Qərib at – qəribə at», «Buz nənni», «Quşbaşı qar, baba və uşaqlar» poemaları araşdırılmış, bu poemalarda olan lirik ricətlər müəyyən edilmiş, onlar haqqında fikir deyilmişdir.*

**Açar sözlər:** Fikrət Sadıq, poema, lirika, ricət, tərbiyə məktəbli

Fikrət Sadığın şeirləri kimi, poemaları da poetik cəhətdən diqqəti cəlb edən əsərlərdir. Poemaların maraqlı süjet xətti var, məzmunları ilə də, ifadə tərzi ilə də oxucuya xoş gəlir və yaxşı oxunur.

**«Ömrün bir günü»** poeması böyük şairimiz Mirzə Ələkbər Sabirdən, onun bir günlük həyatından bəhs edir. Kasıbçılıq, evə əliboş gəlmək, mollaların qınağına dözmək rəzalətləri ilə keçən şairin güzəranı poemada öz ifadəsini tapır. «Şair yenə kədərli, Şair yenə pərişan» misraları ilə başlanan poema özü lirik ricət məqamındadır. Bununla belə, poemada təhkiyədən ayrılan ricətlər də var.

Gecə aysız, ulduzsuz,
Gecə qatrandan qara.
Bulud kimi yayılıb,
Dərələrə, dağlara.
Gecə ölüm rənglidir,
Gecə kömür rənglidir…

Yaxud:

Gecə matəm libası.
Gecə yerin çadrası.
Gecə zil qara pərdə,
Bir ucu buludlarda,
Bir ucu küçələrdə.

Müəllif «Səs» poemasının süjetini bir cümlə ilə əvvəldən bildirir; əvvəlcə poemanın elə bil, ikinci adı kimi «Səhnəmizin altun tağı» sözlərini, sonra da «Abbas Mirzə Şərifzadənin həyatından fraqmentlər» sözlərini yazır. Poema

tarixlərlə iki hissəyə bölünmüşdür: «1902-ci il - «Şəbih», «2008-ci il – «Zorən təbib». Poema uşağın – Abbasın (Abbas Mirzənin) dilindən danışılır. Əmisi onu Şəbihə aparır, uşaq öz rolunu ifadə edə bilmir, ağlayır, əmisi hisrlənir, Şəbih pozulur. Buradaca şairin səsi-ricəti eşidilir:

Doqquz yaşlı əsir uşaq
Ağlamasın? bəs neyləsin?!
O boydaca qəsidəni
Qorxa-qorxa necə desin?

1908-ci ildə isə Abbas Mirzənin səhnədən gur səsi gəlir. Yəni insan var ki, o dinəcək, «Səsi gövsü-qüzeh tək Axacaq pərdə-pərdə». Poemanın «Səs» adlanan sonluğu həmin səsdir». Şair cürbəcür səsləri sadalayır, bunların içərisində bir də Abbas Mirzə səsi var.

Abbas Mirzə səsi də
Vardı bir zaman.
Bir kəsə bənzəməzdi
Onun səsi.
Gün kimi doğmuşdu,
Gün kimi batdı bu səs.

«Olum, ya ölüm» - Azərbaycan teatrının taleyi məsələləri idi. Şair iki sənətkarı yada gətirir ki, onlar – Hüseyn Ərəbli və Abbas Mirzə sayəsində ölum yox, olum qalib gəldi.

Öldü şübhə, qaldı sənət!
Öldü qorxu, qaldı qüdrət!
Öldü zülmət, qaldı işıq!
Biz hamımız o işıqdan
Nur almışıq, ucalmışıq.

Poemanın «Etiraf» hissəsi Ərəblinskinin dilindən deyilən sözlərdir. Burada bu aktyorun inamı, gələcəyə inamı ifadə olunur, «Gün gələr ki, sənətimə baş əyərlər» - deyir. «Bayır şəhər»də alver, satan-alan, dövlətli, kasıb, belə təzadlar yeri. Artist bu küçədən keçir:

Artist – yeriyən hədəf,
Altist – canlı nişangah.
Yalan – küçədə şax gəzir,
Doğru olub daş-qalaq.

1919-cu il gəlir. Ərəblinski güllə ilə vurulubdur. Şair hiddətlə deyir ki: «Sevinməsin, öyünməsin Səhnəmizin düşməni. Bayraq yerə düşmədi, Söndürsə bir çırağı». Bu bayrağı Abbas Mirzə qaldırdı. Burada şair ricət edir:

Bayraq ömrün davamı,
Bayraq – qırılmayan xətt.
Bayraq varsa, ümid var!
Var olacaq həqiqət.

Şair ricəti davam etdirir:

Sel selə qarışıbsa,
Seli saxlamaq olmaz.
Bayraq haqq bayrağısa,
Bayraqdar o bayrağı
Gəzdirməkdən yorulmaz.

Bu axşam al bayrağın altında fəhlələrin nümayişi tərənnüm edilir. Başda Abbas Mirzə, dəmirçi Gavə. Sonra Abbas Mirzə Hamlet rolunda. «O çəlimsiz, zəif bədən başdan-başa yonulmuşdu bir qayadan». O, Hamlet olmuşdu, insanlar onu Hamlet kimi tanıyırdılar. Abbas Mirzə ölsə də, oynadığı rollara dönüb yaşayır. Şair bunu «əks-səda» adlandırır, onun rollarını sadalayır, hər rolda onun sənətinin vüsətini göstərir.

«İşığın yaşı» poeması yer-insan məkanı, daha çox isə işıq haqqında poetik əsərdir. Mənası budur ki, işıq həyatıdır, işıq varlıqdır, işıqsız heç nə yoxdur; hara qoysan, harda yansa, o, nur verəcəkdir. Şair işıqla bağlı bəzi sözləri sadalayır:

«Svet» sözündən «Prosvetitiel» sözü,
«Ziya»dan «Ziyalı»,
«Nur» kəlməsindən «Münəvvər»,
«Aydınlıq»dan «Aydın».

Şair bütün varlığı işığın mövcudluğuna bağlayır: «Vətəndə, Qürbətdə, Səfərdə, Həmişə, hər yerdə İşıq axtarır insan». Şair belə bir hikmət də deyir:

Qəlbində işıq olanın
Ocaq söndürə bilməz əli,
Söndürmək istəsə də, gəlməz əli.

Azərbaycan poeziyasında işıq haqqında zülmət və nur qarşılaşmasından yazılıbdır. Fikrət Sadığın poeması bu silsilədə birinci yerlərə layiqdir.

**«Dənizə axan küçə»** - birnəfəsə yazılmış poemadır. Şair sözləri elə oynadır, elə poetik fiqurlar yaradır ki, onları bir-iki cümlə ilə ifadə etmək olmur; ümumən bu poemanı nəsrə çevirmək və məzmununu danışmaq çətindir, onu gərək bütünlüklə oxuyasan. Burada şairin güclü fantaziyası ilə həyat həqiqəti yanaşı addımlayır. Oxucu dumanlar içində bir sevgi görür, həyat görür.

O tayda bir qız daldalandı
Ürəyəbənzər bir tağın altında.
Sonra bir oğlan dayandı səkidə;
Bir yağışa baxdı, bir qıza.
Yağmurluğunu çıxarıb verdi ona.

Fikrət Sadıq poemalarının bir qismini «Yaşıl xatirələr» ümumi başlığı altında yazmışdır. Bunlardan biri «Yadındamı, Qərənfil?» poemasıdır. Qərənfil adlı qıza müraciətlə yazılmışdır. Şair uşaq ikən Bakının Bayıl adlı hissəsində keçirdiyi günlərə qayıdır, uşaqlıq hissələri ilə oturub-durduğu Qərənfilə müraciətlə hər yadasalmadan sonra «Yadındamı, Qərənfil!» - deyir. O dövrün Bayılını, insanların çətin güzəranını – hər şeyi xəyalından keçirir:

İşə gedən uşaqlar
Böyüklər kimi tutqun
İşdən gələn qocalar
Uşaqlar kimi yorğun,
Çörək dükanlarında
Növbə tutan qarılar…

Şair bunları da yada salır. Elə o çətin günlərdə də uşaq uşaq idi. Bilinmirdi ki, sevgi idi, ya qardaş-bacı məhəbbəti idi. Bunlar bilinmirdi. Ancaq şairin dilindən çıxan sözlər gör nə deyir?

Axı, elə onda da
Biz nə sevdik-sevildik.
Nə əhd-peyman bağladıq.
Bəs, nədəndir, görəsən,
Nədəndir?
Ayrılanda ağladıq,
Yadındamı, Qərənfil!

Şair **«Ağlayır»** poemasının adının altında bu sözləri yazmışdır: «Uşaqlıq illəri dava vaxtına düşən yaşıdlarıma». 1943-cü il qatar insanları əsgərliyə-cəbhəyə aparır. Qatar yola düşür, vağzalda altı nəfər qalır: «İki əsgər, bir leytenant, üç uşaq». Hərəsi bir yerdən olan bu uşaqların hər birinin öz taleyi, istək və arzuları var. Şair bu uşaqları ayrı-ayrılıqda oxucuya tanıtmışdır. Onların son taleyi.

Qıvrımsaçlı oğlanı qaytardılar
Gözü yaşlı anasına.
Bənövşəni – «Bahar» uşaq evinə.
Üçüncü uşağı – «İşıq» məktəbinə.

Şair, parovozu zamana, vaqonları illərə bənzədir. Zaman illəri çəkib apardığı kimi, parovoz da vaqonları çəkib aparır. Poemanın sonu uzun bir ricətdən ibarətdir. Şair o zamanları, o uşaqlıq illərini yadına salır, sorur ki, görən, hardadır o leytenant, o əsgərlər, o oğlanlar, o körpə çəlimsiz qız? Bununla belə, təzadlar içində qalır.

Hardadır on üç yaşım?
Qayıda bilsəydim o günlərə!
O qarlı xatirələrə,
Acı xatirələrə.
Amma qayıtmasın o günlər,
O günlər qayıtmasın!

**«Ucadan danışan»** poemasının belə bir təqdimatı var: «Vaxtilə oxuduğum 3 saylı sənət məktəbinin şagirdlərinə ithaf edirəm». Şairin yolu məktəbin yanından düşür, balaca montyor yuxarı qalxıb radionu divara bərkidir. Aşağıda ustası dayanıb, iş qurtarır. Poemanın ikinci hissəsində məktəblilərin meydana toplaşması göstərilir. Balaca montyor da, usta da burdadır. Birdən radio səslənir: «Dava qurtardı!», «Uzaq-uzaq adalardan Qayıtdı əks-səda: Da-va qur-ta-rıb?!» Burada şairin səsi eşidilir:

Hələ də qulağımdadır
O qayaların əks-sədası.
45 may,
Bayıl
Krasin küçəsi.

**«Səhrada tənha buruq»** (Kinopoema). Şair yazır ki, «Bu əhvalat 1949-cu ildə olmuşdur. O vaxtdan 20 il keçir. O qoca indi də gözlərimdədir». Görək bu hansı əhvalatdır? Ceyrançöl səhrasında nəhəng bir buruq, işıqçı enib-qalxır. Bir qoca gəlir və nə etdiklərini soruşur, eşidir ki, neft axtarırlar. Qoca deyir: «Onsuz da od tutub yanır bu düz. Bu yandan da Neft qarışsa, Alışar, oğul!» Cavab:

Tapılsa, bu səhra
Abad olar, atacan!

Qoca yaxın kənddəndir. Gedir. Buruqda hay-küylü iş gedir. Qoca da gəlib ki, kənddə işıqları sönüb, işıqçını axtarır. İşıqçı bunu eşidir, kəndə həmin Qocagilə gedir. Arvad işıqçını davaya gedib qayıtmamış oğluna oxşadır, elə bilir ki, oğlu gəlibdir. İşıqlar yanır, qonaqlıq olur. İşıqçı gedir. Qoca həsrətlə baxır, elə bil oğlunu tapıbdır.

**«Qərib at – qəribə at»** poemasının əvvəllində müəllif öz tərcüməsində Şəhriyarın «Azərbaycan» şeirini verir. Bu başlanğıc onu göstərir ki, poemada Vətən söhbəti gedəcəkdir, ikiyə bölünmüş Vətənin söhbəti; daha doğrusu Vətən həsrəti söhbəti. Bunu şair bir atın timsalında verir. Bu at o taydan bu taya gəlmişdir.

Hamı inanırdı onun qərib olduğuna
Vaxt gələr,
Vətənə qayıdar.
Hələlik qərib at deyək ona.

At gəldiyi torpaq üçün, əsil sahibi üçün darıxır, özünü ora-bura vurur. Nəhayət, at sərhəddə dayanır. «Maşallah qaçdı, sarıldı Qərib atın boynuna». Şair bunu qəribə bir görüş mənzərəsi kimi təsvir edir, bunu da deyir ki:

Təbiətin iki dərdli ovladı
Göz-gözə,
Üz-üzə
Qolboyun.
Əvvəl at ağladı,
Sonra insan.

Şair «Vətənin dadı-duzu varmış. Bu göz yaşında!» - deyir. Ancaq at daim Vətən həsrəti çəkir, sərhədə gedir. Ancaq «Gündə iki dəfə Qərib ata baş çəkdi. Maşallah».

Qərib at gecələr
Qaçmadı daha.
O Vətəni Maşallahda tapdı,
Maşallah onda.

**«Buz nənni»** poemasının mövzusu ana-övlad doğmalığının müqəddəsliyini ifadə edən bir həqiqətdən götürülmüşdür. Müharibə vaxtı Ladoqa gölünün buzları üstündə Leninqrada maşın sürən ana körpəsini də o yük maşınında aparıb-gətirmiş. Ona görə şair maşını o uşaq üçün «dəmir bələk», Ladoqa buzlarını isə «buz nənni» adlandırır. Poema bu əhvalatın poetik təhkiyəsini verir. Ərsəyə gələn uşaq o hadisələri dönə-dönə anasına danışdırır. Burada şairin bir mühakiməsi var:

Axı, bu ölüm-itim dünyada
Ölüm-itimi daha da
Tezləşdirən davada
Sevgi insandan yaşardı.

Dövrün bütün çətinliklərinə baxmayaraq, «Böyütdü körpəni, Ovutdu körpəni. Ana şəfqəti, Ata qanadı». Şair, o dar gündə ananın dediyi sözləri belə ifadə edir: «Ərimə, buzum, ərimə, Ağlama, qızım, ağlama!» Bu ananın duası idi, həyat uğrunda duası idi. Bir dəfə düşmən təyyarəsi maşına atəş açır, ana yaralanır, onu xəstəxanaya aparırlar, sağalır. Şair belə bir göründü verir: 20 ildən sonra buzları ərinmiş Ladoqanın kənarında ana heykəl kimi dayanıb o günlərin izlərini axtarır.

Fikrət Sadığın bu poeması insanlara, xüsusən analara çox şey deyir.

**«Quşbaşı qar, baba və uşaqlar»** poemasına müəllif şair Musa Yaqubdan bir epiqraf vermişdir: «Buynuz kəndində bir gün». Şair özü isə poemada təsvir olunan məkanı belə adlandırır: «Qış Dağ kəndi. Günorta». Güclü qar yağır. Şair heyranlıqla baxır və birdən bir haşiyə çıxır:

Allah, Allah, nə ilahi sükut,
Nə gözəl tamaşa!

Uşaqlar qarda oynayırlar. Bir qoca görünür. Uşaqlar hücum çəkib, qar atıb, onu yıxmaq istəyirlər. Qoca yıxılmır. Budur şairin sözləri:

Demə, uşaqlar
Sözü bir yerə qoyub,
Demişlər,
Babanı yıxıb,
Gülmək istəmişlər,
Babanın gücünü
Bilmək istəmişlər.
- Ay dəcəllər, bu nə işdir?
Dedilər: - İstədik səni yıxaq.
Dedi: - Nahaq,
Nahaq yerə.
Məni yıxsa, əcəl yıxar,
Ona da hələ çox var…
Bu dünyadan doymaq olar?!
Bu dağlardan köçmək olar?!

Fikrət Sadığın poemaları gözəl bədii sənət əsərləri olmaqla rəvan oxunur. Bu poemalar həm böyüklər, həm də yeniyetmələr üçün tərbiyə məktəbidir. Onlardan bəzilərinin orta məktəb dərsliklərinə salınması əhəmiyyətli olardı.

## ƏDƏBİYYAT


1. Fikrət Sadıq. Taleyin acığına. Bakı: Çinar-çap:, 2003, 526 s.
2. Teymur Əhmədov. Azərbaycan yazıçıları. Bakı: Önər, 1995, 489 s.


## ЛИРИЧЕСКИЕ ОТСТУПЛЕНИЯ В ПОЭМАХ ФИКРЕТА САДЫХА


**С.М.МАРДАНОВА**


**РЕЗЮМЕ**


В настоящей статье исследуются десять поэм Фикрета Садыха и выявляются лирические отступления в поэмах, определяется их статус и анализируются их художественные особенности.



**Ключевые слова:** Фикрет Садых, поэма, лирика, лирические отступления, школа воспитания


## LYRICAL DIGRESSIONS IN THE POEMS BY FIKRET SADIKH


**S.M.MARDANOVA**


**SUMMARY**


The article deals with the research of ten poems by Fikret Sadikh. The lyrical digressions in the poems are revealed; their status is determined and their artistic peculiarities are analysed on the basis of specific examples.



**Key words:** Fikret Sadikh, poem, lyrics, lyrical digressions